# Şuşaya daha 102 nəfər qayıtdı











Böyük qayıdışın Şuşa salnaməsi davam edir. Dünən Şuşa şəhəri növbəti qayıdış karvanını qarşılayıb. Bu mərhələdə şəhərə respublikanın müxtəlif ərazilərində məskunlaşmış 30 ailə - 102 nəfər köçürülüb. Şuşada artıq 177 ailənin, yəni 672 nəfərin daimi məskunlaşması təmin edilib.

Şuşalılar uzun illərdir həsrətini çəkdikləri dədə-baba torpaqlarına sevinc və qürur hissi ilə qayıdırlar. Şəhərdə sakinlərin rifahının yüksəldilməsi istiqamətində mühüm tədbirlər görülüb, insanların rahat yaşaması və işləməsi üçün bütün lazımi şəraitlə təmin edilməsinə xüsusi diqqət yetirilib. Müasir şəhərsalma qaydalarına uyğun plan əsasında bərpa edilən şəhərin yeni yaşayış binaları ənənəvi memarlıq üslubunda inşa olunub.

Tarixi, mədəni və dini abidələri ilə zəngin olan Qarabağ və Şərqi Zəngəzur 30 ilə yaxın davam edən işğal dövründə darmadağın edilib. Təkcə Şuşada 8 muzey, 31 kitabxana, 13 məscid, 17 klub, 8 mədəniyyət evi dağıdılaraq viran qoyulub. Şəhərdə aparılan bərpa və yenidənqurma işlərində çoxsaylı layihələr həyata keçirilib, işğal dövründə vandalizmə məruz qalan tarixi mədəni abidələr, tikililər bərpa edilib və proses davam edir.





"Böyük qayıdış" proqramının icrası çərçivəsində bu günə qədər 8 mindən çox keçmiş məcburi köçkün Laçın, Füzuli, Şuşa, Xocalı şəhərlərinə və dörd kəndə qayıdıb. Qürurverici haldır ki, artıq 2066 ailə - 8003 nəfər öz istəyilə əzəli yurdlarına qayıdıb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 552 ailə (2031 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 177 ailə (672 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində məskunlaşıb.

2026-cı ilin sonunda Böyük qayıdışın birinci mərhələsi bitənə qədər Qarabağ və Şərqi Zəngəzurda 34 min 500 ailənin təhlükəsiz məskunlaşması təmin ediləcək.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 6 sentyabr (№ 193).- S.10.